Səh. 2 PANİKA

Səh. 3 BİZİ BİZ EDƏN XÜSUSLAR – MİLLİ VƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZ

Səh. 4 VAHİD MİLLİ İMTAHANLAR ÜÇÜN QEYDİYYAT BAŞLAYIB

Səh. 5 QƏDDARLIĞA YOLUXMUŞ KÖRPƏLƏR

Səh. 5 KORONAVİRUSUN KÖLGƏSİNDƏ QALAN İQTİDAR-MÜXALİFƏT RAZILAŞMASI

Səh. 6 YAZ ALLERGİYASI

Səh. 6 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

Səh. 7 QARDABANİ MERİ BİRİNCİ MÜAVİNİNİ TƏQDİM EDİB



İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MART 2020-Cİ İL №005 (109)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## SEÇKİ SİSTEMİ İLƏ BAĞLI KONSTİTUSİYAYA DƏYİŞİKLİKLƏR EDİLƏCƏK



Seçki sistemi ilə bağlı konstitusiyaya dəyişikliklər ediləcək. Müvafiq qanun layihəsi Gürcüstan parlamentinin bürosuna təqdim olunub.

Layihədə bildirilir ki, 2020-ci ilin parlament seçkiləri qarışıq sistem üzrə keçiriləcək və qanunverici orqana 120 deputat proporsional, 30 deputat isə majoritar sistem üzrə seçiləcək. Proporsional seçkilər 1%-lik seçki baryeri ilə keçiriləcək.

Sənəddə qeyd olunub ki, seçkilərdə proporsional sistem üzrə 40,54%-dən az səs toplayan partiya və ya siyasi blok hökumətin formalaşdırılmasında müstəqil olaraq iştirak edə bilməyəcək.

Qanun layihəsinə əsasən, parlament seçkilərində iştirak etmək istəyən partiya 5 000 seçicinin imzasını təqdim etməli olacaq. Son parlament və yerli idarəetmə orqanlarına seçkilərdə iştirak edən və proporsional olaraq ən azı 15 000 səs əldə edən partiya və ya bloklar, həmçinin 2018-ci ildə prezident seçkilərində namizəd irəli sürən və ən azı 15 000 səs toplayan partiyalar bu sayda imza verməkdən azad edilir.

Sənəddə vurğulanıb ki, 2024-cü ilə qədər növbədənkənar seçkilərin keçiriləcəyi halda qanun layihəsində nəzərdə tutulan müvəqqəti seçki sistemi qüvvədə olacaq.

## TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏTİLİN MÜDDƏTİ UZADILDI



Gürcüstanın bütün təhsil müəssisələrində martın 16-dək elan olunan tətilin müddəti aprelin 1-dək uzadıldı.

Bu barədə Gürcüstanın Dövlət Qurumlararası Koordinasiya Şurasının toplantısında qərar qəbul edilib.

Digər qərarla hərbi xidmətə yaz çağırışı aprelin 13-dək təxirə salınıb.

Qeyd edək ki, bu günə qədər ölkədə koronavirus 30 şəxsdə təsdiqlənib. Karantində 439, stasionar nəzarətdə isə 64 nəfər saxlanılır.

## GÜRCÜSTAN AZƏRBAYCAN, TÜRKİYƏ VƏ ERMƏNİSTANLA SƏRHƏDLƏRİNİ BAĞLADI

Azərbaycan və Ermənistanla sərhədlər martın 14-dən 10 gün müddətinə bağlanıb. Bu barədə baş nazirin Mətbuat Xidməti məlumat yayıb.




Məlumatda bildirilib ki, qərarı baş nazir Qiorqi Qaxaria azərbaycanlı və erməni həmkarı ilə telefon danışığından sonra verib.

Tərəflər həmçinin vətənə qayıtmaq arzusunda olan vətəndaşların ölkəyə problemsiz şəkildə qayıtmalarının təmin olunması barədə razılığa gəliblər. Məlumata görə, məhdudiyyətlər yük daşımalarına şamil olunmayacaq.

Həmçinin Gürcüstan və Türkiyə arasında "Sarp" sərhəd keçid məntəqəsindən gediş-gəliş müvəqqəti olaraq dayandırılıb.

## ƏCNƏBİLƏRİN GÜRCÜSTANA DAXİL OLMASI SƏRTLƏŞDİRİLDİ



Koronavirus təhlükəsi ilə əlaqədar olaraq Gürcüstan ərazisinə daxil olmaq şərtləri sərtləşdirilib.

Bu barədə Gürcüstanın Dövlət Qurumlararası Koordinasiya Şurasının iclasında qərar qəbul olunub.

Qərara əsasən, Gürcüstana gələn və son 14 gün ərzində epidemiya riskinin olduğu ölkələrdə səfərdə olan yerli və xarici ölkə vətəndaşları ölkəyə daxil olarkən koronavirus testindən keçmələri barədə sertifikat təqdim etməli olacaqlar.

Əcnəbilər bu sənədi gəldiyi ölkənin və ya tranzit ölkənin müvafiq laboratoriyasından əldə etməlidir.

Gürcüstana daxil olan və bu yaxınlarda yüksək riskli ölkələrə (Çin, Cənubi Koreya, İtaliya, İran, Almaniya, Fransa, Avstriya, İspaniya) səfər edən şəxslər sərhəd-keçid məntəqələrində intensiv tibbi yoxlanışdan keçiriləcək və məcburi qaydada 14 günlük karantində saxlanılacaqlar.



# PANİKA

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

*“Sakit olun, cənablar, sakit olun. Ədəb qaydalarına riayət edək. Roma imperiyası – bizik. Biz simamızı itirsək, imperiya başını itirəcək. İndi panikaya düşmək vaxtı deyil! Əvvəlcə gəlin səhər yeməyi yeyək. İmperiyanın halı da yaxşılaşacaq” (Albert Kamyu, “Kaliqula”).*

Çini, İranı, İtaliyanı dizi üstə çökdürən o gözəgörünməz virus bütün dünyanı təşvişə salıb. Hamı panikadadır. Yaddaşım mənə xəyanət etmirsə, adını xatırlamadığım diktatorlardan biri panikanı ən sürətlə yayılan virus adlandırıb. Əslində isə panikanın yayılma sürəti də elə kütləvi informasiya vasitələrinin informasiya yayma sürətinə bərabərdir.

Televizoru qurursan bütün kanallar koronavirusdan danışır, radio və saytlar da həmçinin. Feysbuka daxil olan kimi koronavirusun şabalıd qozasına oxşayan böyüdülmüş şəkilləri profilinin divarını bürüyür. Xəstəliyə yoluxanların və ölənlərin sayını göstərən rəqəmlərin günü-gündən çoxaldığını görüb təşvişə düşürsən.

Eynin açılsın deyə bu viruslu informasiya hucumundan qaçmaq üçün küçəyə çıxırsan, yenə eyni şeyləri eşidirsən. Çayxanaya gedirsən, eyni söhbətlər edilir. Yas mərasimlərində də, toy mərasimlərində də hamı koronavirusdan danışır. Elə bil xeyir-şər mərasimləri deyil, koronavirusla bağlı elmi konfransdır.

Vay halına ki, asqırasan, öskürəsən. Hamının gözündə potensial virus daşıyıcısı olursan. Hamı başlayır səndə koronavirusun simptomlarını aşkarlayıb həkim məsləhəti verməyə və ya səninlə zarafatlaşmağa. Özün özündən şübhələnməyə başlayırsan. Yenə təşvişə düşürsən, ağlına yüz cür fikir gəlir, vahimələnirsən.

İndi təsəvvür edin bütün dünyada vəziyyət bu cürdür. Panika insanlarda kütləvi psixoz halı alıb. Bu psixoloji epidemiya virus epidemiyasından betərdir. Panikaya düşən insanlarda heyvani instinktlər oyanmağa başlayır. Mağazaların vitrinlərindəki ərzağı soyuducularına daşıyıb dolduran insanlar yaşamaq uğrunda mübarizəyə qoşulublar sanki. Sanki dünyanın sonudur.

Yadınızdadırsa 2012-ci ilin dekabrında dünyanın sonu xəbəri yayılmağa başladı. İnsanlar mağazalarda şam, ərzaq qoymadılar. Guya dünya dağılanda bunlar oturub şam işığında konserv yeyəcəkdilər. Bu cür misallar bir deyil. Dünya isə dağılmadı.

Tibbin günümüzdəki kimi inkişaf etmədiyi bir vaxtda (1918-1920) dünyanı bürüyən “ispan qripi” deyilən virus 50 milyondan çox insanın ömrünə son qoydu. Bu, bəşər tarixi üçün ən genişmiqyaslı fəlakət hesab olunur. Bu cür misallar da bir deyil. Dünya isə dağılmadı.

Və günümüzə kimi davam edən xəstəliklər, müharibələr milyonlarla insanın ölümünə səbəb olub. Düzdür, bütün bunlar danılmazdır, amma insanlar arasına panika toxumu səpmək virusla əlbir olmaq, şərə xidmət etmək deməkdir. Belə bir durumda müəyyən məqsədlər üçün insanlar arasında yalan məlumatlar yaymaq, şaiyələr uydurmaq, insanları qorxutmaq, panikaya salmaq insanlıqdan kənar hərəkətdir, əxlaqsızlıqdır.

Bəzi saytlar oxucu sayı toplamaq üçün uydurma məlumatlar yayaraq insanlarda təşvişə səbəb olurlar.

Ona görə də, “saat 11-dən axşam saat 5-ə kimi eşikdə paltar qoymayın, koronavirusa görə vertalyotla dərman tökəcəklər” kimi uydurma, feyk “xəbərlərə” inanmaq, üstəgəl bu cür “xəbərlərin” tirajlanmasında vasitəçilik etmək əvəzinə ən azı gigiyenik qaydalara, aidiyyəti qurumların verdiyi tövsiyələrə əməl etsəniz həm özünüz üçün, həm də ətrafınız üçün daha faydalı olarsınız.

Belə ki, sakit olun, cənablar, panika yaratmayın. Gigiyenik qaydalara riayət edin. Dünya – bizik, bizsiz heç kimə lazım deyil. Biz simamızı itirsək, dünya başını itirəcək. İndi panikaya düşmək zamanı deyil! Novruz bayramı yaxınlaşır. Çalışın sağlam olun!

## DÖVLƏT QURUMLARI 24 SAATLIQ FÖVQƏLADƏ İŞ REJİMİNƏ KEÇİB



Baş nazir Giorgi Qaxaria hökumətin iclasında bildirib ki, Gürcüstanın bütün dövlət qurumları koronavirusla bağlı 24 saatlıq fövqəladə iş rejiminə keçib.

Onun sözlərinə görə, xüsusən də səhiyyə, daxili işlər, təhsil, ədliyyə, xarici işlər və maliyyə nazirlikləri fövqəladə rejimdə fəaliyyət göstərirlər.

G.Qaxaria Gürcüstanın koronavirusla bağlı yaranan və gündən-günə artan problemlərin həllinin öhdəsindən gəlməyə hazır olduğunu vurğulayıb.

“Biz bu çağırışlara cavab verməyə hazır olmalıyıq. İlk növbədə yaşlılar, uşaqlar və bir-birimizin qayğısına qalmalıyıq”, - deyə baş nazir bildirib.

## KORONAVİRUSLA MÜBARİZƏYƏ BİR MİLYON LARİ AYRILIB



Gürcüstanda koronavirusla mübarizə tədbirlərinə bir milyon lari xərclənəcək.

Bu barədə Gürcüstan hökuməti qərar qəbul edib.

Vəsait hökumətin Ehtiyat Fondundan Gürcüstanın Səhiyyə Nazirliyinə ayrılıb.

## ABŞ DÖVLƏT DEPARTAMENTİ: GÜRCÜSTAN AZƏRBAYCANLILARININ UŞAQLARI TƏHSİLDƏN KƏNARDA QALIR




“Siyasi, iqtisadi və mədəni maneələrlə yanaşı, Gürcüstanda milli azlıq nümayəndələrinin inteqrasiyası üçün gürcü dilinin zəif mənimsənilməsi əsas əngəl olaraq qalır”. Bu barədə ABŞ Dövlət Departamentinin Gürcüstanla bağlı insan haqları üzrə illik hesabatında bildirilib.

2019-cu ili əhatə edən sənədə əsasən, bəzi milli azlıqlar təsdiq edirlər ki, dövlət dilini tələb olunan səviyyədə bilmədikləri üçün onlar dövlət qulluqçusu kimi işləyə bilmirlər və bu da onları idarəçilikdə iştirakdan kənarlaşdırır: “Gürcüstanın Ombudsman Aparatından bildirilib ki, etnik azlıqlar mərkəzi hakimiyyətdə az sayda təmsil olunduqlarına görə milli səviyyədə onların qərar qəbuletmə prosesinə cəlb olunması problem olaraq qalır”.

Hesabatda Gürcüstanda milli azlıqlara qarşı diskriminasiya hallarına da yer verilib: “Dekabrın 12-nə olan məlumata əsasən, Gürcüstanın Ombudsman Aparatı və QHT-lər milli və etnik mənsubiyyətə görə ayrı-seçkiliklə bağlı 15 şikayət alıb. Ombudsman Aparatına daxil olan iki şikayət kommersiya banklarının İran, İraq, Suriya və Nigeriyadan olan şəxslərə xidmət göstərməkdən imtina etmələri ilə bağlı olub”.

Sənəddə həmçinin kənd yerlərində yaşayan etnik azlıq nümayəndələrinin təhsildən yayınma probleminə də diqqət çəkilib. Qeyd olunub ki, azərbaycanlıların yığcam yaşadıqları Kvemo Kartli və Kaxeti bölgələrinin kəndlərində yaşayan bəzi ailələr il ərzində altı-doqquz ay müddətinə uzaq otlaqlarda çalışdıqlarından onların uşaqları nadir hallarda məktəbə gedirlər.

Hesabatda 2019-cu ildə uzaq rayonlar və etnik azlıq icmaları arasında evlənmək məqsədilə qızqaçırma hallarının azaldığı vurğulanıb. Dekabrın 12-nə olan məlumata əsasən, Gürcüstanın Ombudsman Aparatı erkən nikahla bağlı 43 halı nəzərdən keçirib, 2018-ci ildə isə bu cür halların sayı 45 təşkil edib.

Mənbə: report.az

## BU İL QARDABANİ VƏ MARNEULİDƏ NOVRUZ ŞƏNLİKLƏRİ KEÇİRİLMƏYƏCƏK

Qardabani və Marneuli rayonlarında Novruz bayramı münasibətilə keçirilməsi nəzərdə tutulan şənliklər ləğv olunub. Bu barədə hər iki rayon bələdiyyəsinin yaydığı məlumatda bildirilib.

Qeyd edilib ki, rayonlarda bu ay ərzində bütün kütləvi tədbirlər koronavirusun yayılması təhlükəsinin qarşısının alınması məqsədilə keçirilməyəcək.

Bununla yanaşı, Qardabani və Marneuli bələdiyyələrində vətəndaşların qəbulu da müvəqqəti olaraq məhdudlaşdırılıb.

## TÜRKİYƏ SƏFİRİ: "AZƏRBAYCAN--TÜRKİYƏ-GÜRCÜSTAN BİZNES FORUMU KEÇİRİLMƏLİDİR"



"Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli biznes forumu keçirilməlidir".

"Yeni YOL" "Report"a istinadla xəbər verir ki, bu təkliflə Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan Azərbaycan-Gürcüstan biznes forumunda çıxış edib.

Onun sözlərinə görə, Avropa İttifaqı da bu foruma qoşula bilər və dördtərəfli tədbir təşkil oluna bilər.

Səfir qeyd edib ki, onlar və Gürcüstanda türkiyəli iş adamlarının təmsil olunduğu biznes asossiasiyaları bu biznes forumun təşkil edilməsinə dəstək verməyə hazırdır.

F.C.Yazqanın sözlərinə görə, 3 ölkənin şirkətləri arasında əməkdaşlığın gücləndirilməsi üçün böyük potensial var.

Təklifə münasibət bildirən Avropa İttifaqı - Gürcüstan Biznes Şurasının baş katibi Zviad Çumburidze deyib ki, Gürcüstan və Azərbaycan üçün Türkiyə iqtisadi sahə üzrə təcrübə mübadiləsində maraqlıdır. O, üçtərəfli biznes forumun keçirilməsi məsələsinin müzakirə olunduğunu deyib: "Ümid edirəm ki, gələn il üçtərəfli biznes forumu təşkil etmək mümkün olacaq".

## BAŞ PROKURORUN MÜAVİNİ GİORGİ QOQADZE EUROJUST-DA VASİTƏÇİ PROKUROR TƏYİN OLUNUB



Gürcüstanın Baş Prokurorluğunda kadr dəyişikliyi həyata keçirilib. Baş prokurorun müavini Giorgi Qoqadze EUROJUST-da vasitəçi prokuror təyin olunub.

Baş Prokurorluğun yaydığı məlumata əsasən, G.Qoqadze 2013-cü ildən bu günə qədər baş prokurorun müavini vəzifəsini tutub.

EUROJUST-la əməkdaşlıq sənədi Haaqada 2019-cu ilin mart ayında imzalanıb.

Gürcüstan Cənubi Qafqazda EUROJUST-la razılaşma bağlayan ilk ölkədir. Tərəfdaş ölkələrin (həmçinin ABŞ, Norveç, İsveçrə və s.) vasitəçiləri var.

EUROJUST-la əməkdaşlıq Gürcüstana transmilli və mütəşəkkil cinayətlərə qarşı mübarizədə kömək edəcək.

EUROJUST cinayət sahəsində əməkdaşlıq üzrə Avropa İttifaqının müəssisəsidir və 2003-cü ildən Haaqada, Niderland Krallığında fəaliyyət göstərir.

## CARİ TƏDRİS İLİNDƏ AZƏRBAYCANDA ALİ TƏHSİL ALAN GÜRCÜSTAN VƏTƏNDAŞI YOXDUR



Gürcüstanın Milli Statistika İdarəsinin hesabatına əsasən, 2019-2020-ci tədris ilində Gürcüstanın ali məktəblərində təhsil alan Azərbaycan vətəndaşlarının sayı 1344 nəfər təşkil edir.

Onlardan 344-ü dövlət, 1000-i isə özəl ali tədris müəssisələrində təhsil alır.

2018-2019-cu tədris ili ilə müqayisədə Gürcüstanda ali təhsil alan Azərbaycan vətəndaşlarının sayı 780 nəfər azalıb.

Hesabata əsasən, cari tədris ilində Azərbaycanda ali təhsil alan Gürcüstan vətəndaşı yoxdur.

Hazırkı tədris ilində Gürcüstanın universitetlərində təhsil alan əcnəbi tələbələrin sayı illik müqayisədə 8,9% artaraq 13,3 min nəfərə çatıb.

## BİZİ BİZ EDƏN XÜSUSLAR – MİLLİ VƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZ



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Din, dil, tarix, mədəniyyət, adət-ənənə – bunlar cəmiyyətin gələcəyinə istiqamət verən milli və mənəvi dəyərlərdir.

Bir millətin dəyərləri onun şəxsiyyətini ortaya qoyan xüsuslardır. Dəyərlər bir millətin və ya cəmiyyətin meydana gətirmiş olduğu adət və ənənələrin başqa faktlarla əhəmiyyətini ölçməkdir.

İnsanın geyimi, yaşadığı yer, kiminlə evlənməsi, yaşam tərzi kimi hər şey milli və mənəvi dəyərlərə aid edilməkdədir.

Qısacası, cəmiyyətdəki fərdlərin nələri edib, nələri etməməsini də bu dəyərlər təyin edir. Yəni ki, adət və ənənələri insanlar təyin etsələr də onların həyatına bu dəyərlər yön verir.

Bir millətin davamlı milli və mənəvi dəyərlərinə sahib çıxması lazımdır. Çünki bu dəyərlər, millətlərin birlik, bərabərlik və həmrəylik içərisində yaşamalarını təmin etməkdədir.

Bəs nədir bu milli-mənəvi dəyərlər?

Millətin, xalqın yaddaşını ehtiva edən tarix, dil, din, mədəniyyət və incəsənət, ədəbiyyat, ailə, milli musiqi, milli özünüdərk və folklorumuz bizim milli-mənəvi dəyərlərimizdir.

Şirməmməd Nəzərli bir məqaləsində yazır ki: "Mənəvi dəyərlər bu gün daha çox ictimai rəyə əsaslanan yazılmamış ünsiyyət qanunları kimi fəaliyyət göstərir. Adət-ənənə ilə əxlaq arasında qırılmaz bağlılıq var. Hər bir ənənə müəyyən əxlaqi məna daşıyır. Onlara laqeyd qalmaq insanlar arasında münasibətlərin pozulmasına, şəxsiyyətlə kollektiv və cəmiyyət arasında ziddiyyətlərin əmələ gəlməsinə səbəb olur. Çünki milli-mənəvi dəyərlər xalqın milli ruhunu, estetik ruhunu, estetik duyumunu, sənətkarlıq qüdrətini özündə yaşadır. Hazırda bu mənəvi dəyərlər zəngin mədəni irs olmaqla bərabər, eyni zamanda milli özünəməxsusluğun ifadə vasitəsinə çevrilib."

Bəli, son zamanlarda dünyanın bir çox yerində keçirilən və bu yaxınlarda Bakıda da baş tutan sözdə azadlıq istəyən bəzi "qadınlar"ın həyata keçirdiyi bu tip aksiyalar bizim nə milli, nə də mənəvi dəyərlərimizlə uyğunlaşmır. Çünki bizim dəyərlərimizdə qadın yüksək bir yerə sahibdir. Qadının azadlığı onun yarıçılpaq şəkildə küçəyə çıxmasında, onun mağazada satıcılıq etməsində yox, onun ədəbli, əxlaqlı və ən əsası da elmli, savadlı olmasındadır. Çünki qadın anadır və gələcək nəsillərin yetişməsində əsas rolun aparıcısıdır. Bu xüsus kişilərimizi də ehtiva etməkdədir. Bizim dəyərlərimizdə kişinin sırğa taxması, dar şalvar geyinməsi də xoş qarşılanmamaqdadır.

Mənəvi dəyərlərimizi qorumaq üçünsə övladlarımıza dini əsasları və dürüstlüyü, güvənliliyi, ibadətlərə və ibadətgahlara saygılı olmağı öyrətməliyik.

Milli və mənəvi dəyərlərinə sahib çıxmayan və başqa millətləri kor-koranə təqlid edib öz dəyərlərini itirən cəmiyyətlər tarix səhnəsindən silinib getmişlər. Bir cəmiyyəti yox etmək istəyənlər hər zaman o millətin dini və milli dəyərlərini yox etməyə çalışmışlar.

Qərb mədəniyyətinə meyl edərək soyunmağı dəb, əxlaqsızlığı hürriyyət bilmək milli-mənəvi dəyərlərimizə ziddir.

Birlik və bərabərliyimizi, hüzur və xoşbəxtliyimizi təmin edən milli və mənəvi dəyərlərimizə sahib çıxaq. Onları yaşayaraq mühafizə edək və bizdən sonrakı nəsillərə təhrif olmadan ötürülməsini təmin edək.

## VAHİD MİLLİ İMTAHANLAR ÜÇÜN QEYDİYYAT BAŞLAYIB




Vahid milli imtahanlara qeydiyyat 2 mart tarixində başlayıb və 30 mart saat 18:00-a kimi davam edəcək.

İştirakçılar elektron şəkildə Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin veb-səhifəsində (online.naec.ge) qeydiyyatdan keçməlidirlər.

Abituriyentlərin qeydiyyat prosesi bu il də bir neçə mərhələyə bölünüb.

Qeydiyyatın ilk mərhələsində abituriyent şəxsi məlumatlarını doldurmalı, imtahan verəcəyi şəhəri, fənləri seçməli və lazım olan halda xüsusi şərtləri qeyd etməlidir. Fənn dəyişmək və ya əlavə etmək, eləcə də imtahan dilini dəyişmək 7 may saat 18:00-a qədər mümkündür. Təhsil proqramlarının siyahısına dəyişiklik daxil etmək imkanı isə apelyasiya nəticələrinin yayımlanmasından sonrakı günə qədər verilir.

İştirakçılar 2020-ci ilin yenilikləri, təhsil proqramları siyahısı, tez-tez verilən suallar və imtahan prosesi ilə əlaqədar başqa vacib məsələlərlə abituriyentlər üçün məlumat kitabçasından tanış ola bilərlər.

Sistem avtomatik imtahanda iştirak etmək üçün ödəniş edilib-edilmədiyini yoxlayır (əgər ödəmə təsdiqlənmirsə abituriyent ekranda müvafiq mesajı görür və qeydiyyata davam edə bilmir).

Vahid milli imtahanlarda iştirak etmək üçün ödənməli olan məbləğ (bir fənn üçün) 10 laridir.

Mümkün ödəmə vasitələri və bank xidmətlərinə görə əlavə məbləğ:

1. Mərkəzin veb-səhifəsindən ödənərkən ödənilən məbləğə 0,5 lari əlavə olunur.

2. "Gürcüstan Bankı"nın (Sakartvelos Banki) xidmət mərkəzlərindən ödənərkən – 0,5 lari əlavə olunur.

3. "Epay.ge" veb-səhifəsi vasitəsilə ödənərkən – 1 lari əlavə olunur.

4. "Gürcüstan Bankı"nın öz xidmət terminalları vasitəsilə ödənərkən – 1 lari əlavə olunur.

5. "Gürcüstan Bankı"nın internet bankinqi (ibank.ge) vasitəsilə ödənərkən – 1 lari əlavə olunur.

6. "OPPA.ge"nin öz xidmət terminalları ilə ödənərkən – 0,5 lari əlavə olunur.

Qeydiyyatı ləğv etmək istəyən aplikant Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinə ərizə ilə müraciət etməlidir. Əgər aplikant 7 may saat 18:00-a kimi müraciət edərsə məbləğ ona geri qaytarılır. Bölgələrdə bu cür ərizələrlə təhsil resurs mərkəzlərinə müraciət olunmalıdır.

**Ərizə ilə birgə təqdim olunmalıdır:**

Şəxsiyyət vəsiqəsi və ya surəti.

Əgər ərizəni başqa şəxs verirsə – qanuni nümayəndəliyi təsdiq edən sənəd.

Məbləğin qaytarılması ilə bağlı məlumat Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin veb-səhifəsində yayımlanacaq.

## TƏHSİL, ELM, MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRİ HARADA TƏHSİL ALIB VƏ İXTİSASI NƏDİR?



Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Çxenkeli Tbilisinin 1 saylı orta məktəbində təhsil alıb. O, məktəbi qızıl medalla bitirib və təhsilini Tbilisi Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsində davam etdirib.

Mixeil Çxenkeli Amerika Birləşmiş Ştatlarında Pensilvaniya Universitetinin doktorantura pilləsini bitirib və orada riyaziyyat üzrə doktorluq dərəcəsi qazanıb.

Gürcüstanın təhsil naziri 20 il ərzində Amerikanın aparıcı universitetlərində dərs deyib.

M.Çxenkeli Amerikanın Riyaziyyat Assosiasiyasının elmi konfranslarında və beynəlxalq elmi konfranslarda iştirak edib. O, həmçinin yeni kurrikulumların hazırlanmasında da iştirak edir və yenidən ABŞ-da mühazirələr oxuyur. Onun Amerikanın çox sayda aparıcı universitetlərinin professorları, eləcə də Harvard, Prinston, Pensilvaniya, Yel, Kolumbiya, Braun, Korneli, Çikaqo, Berkel, Nyu-York, Cons Hopkins universitetlərində və Masaçusets Texnologiya İnstitutu ilə sıx peşəkar əlaqələri var. Təhsil naziri Amerika Universitetləri Assosiasiyasının üzvüdür.

Mixeil Çxenkeli 2016-2017-ci illərdə İvane Caxavişvili adına Tbilisi Dövlət Universitetinin prorektoru olub. 2017-2018-ci illərdə təhsil və elm naziri olub. 2018-ci ildə Avropa Akademiyasının (Academia Europaea) fəxri üzvü seçilib.

2018-2019-cu illərdə Mixeil Çxenkeli təhsil məsələlərində Gürcüstanın baş nazirinin müşaviri vəzifəsini tutub. Bu gün isə o, yenidən Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziridir.

## ABİTURİYENT MİLLİ İMTAHANLARI GÜRCÜ DİLİNDƏN BAŞQA DAHA HANSI DİLDƏ VERƏ BİLƏR?



2020-ci ilin vahid milli imtahanlarına qeydiyyat 2 mart tarixində başlayıb və 30 mart tarixinə qədər davam edəcək.

Abituriyentlər vahid milli imtahanları gürcü dilindən başqa daha hansı dildə verə bilərlər? – 2020-ci ilin abituriyentlər üçün məlumat kitabçasında qeyd olunub ki, müəyyən kateqoriyaya daxil olan abituriyentlər ümumi qabiliyyət imtahanından başqa imtahanları rus dilində də verə bilərlər. Bunun üçün onlar Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinə ərizə ilə müraciət etməlidirlər.

"Ümumi qabiliyyət imtahanını rus, erməni, Azərbaycan dillərində vermək mümkündür. Ümumi təhsili işğal edilmiş ərazidə almış abituriyentlərin tarix, coğrafiya, fizika, biologiya, təsviri və tətbiqi incəsənət, vətəndaş təhsili, riyaziyyat və kimya imtahanını rus dilində vermək hüququ var. Bu halda abituriyentlər ərizə ilə Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinə 2020-ci ilin 1 mayına qədər müraciət etməlidirlər"- Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin yayımladığı məlumatda qeyd olunub.

## ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏLƏRİN QƏBULU ARTIB

Statistika Xidmətinin göstəricilərinə əsasən, 2019-2020-ci tədris ilinin başlanğıcında Gürcüstanda 62 ali təhsil müəssisəsi fəaliyyət göstərib. Buradan 19 təhsil müəssisəsi dövlət, 43-ü isə özəldir. Ötən ilin analoji göstəricisi ilə müqayisədə müəssisələrin sayı 1 ədəd azalıb. Ali təhsil müəssisələrinin 60,0%-i paytaxt Tbilisidədir.

Xidmətin məlumatına görə, 2019-2020-ci tədris ilinin başlanğıcında Gürcüstanın ali təhsil müəssisələrinə 43.2 min tələbə qəbul olub, dövlət universitetlərinə qəbul olanların sayı 27.9 min, özəl universitetlərə qəbul olanların sayı isə 15.4 mindir. Tələbə qəbulu ötən ilin analoji göstəricisi ilə müqayisədə 1.6 min artıb. Artım əsasən özəl universitetlərin payına düşür.

2019-cu ildə ali təhsil müəssisələrini bitirən məzunların sayı 24.8 min təşkil edib. Ötən illə müqayisədə bu 2,0% çoxdur.

Məzunların 56,7%-i qadın, 43,3%-i kişidir. Dövlət ali təhsil müəssisələrini bitirən məzunların sayı 2.3 dəfə özəl universitet məzunlarından çoxdur.

## MƏKTƏB DİREKTORLARI ÜÇÜN İMTAHANLAR TƏXİRƏ SALINIB

6 və 7 mart tarixində keçirilməli olan direktor olmaq istəyənlərin sertifikat imtahanı təxirə salınıb.

Təhsil Nazirliyinin məlumatına görə, koronavirusla bağlı ümumi təhsil və ali təhsil müəssisələrində aparılan dezinfeksiya tədbirləri ilə bağlı ictimai məktəb direktoru olmaq istəyənlərin sertifikat imtahanlarının birinci mərhələsi – test imtahanı – 2020-ci ilin 6 və 7 mart tarixində keçirilməyəcək.

Yenilənmiş məlumat veb-səhifədə 2020-ci ilin 20 mart tarixində yerləşdiriləcək.

Direktor olmaq istəyənlərin sertifikat imtahanı 2020-ci ilin 6 və 7 mart tarixində sonrakı ünvanlarda keçirilməli idi:

- "Yeni dalğa" kolleci,

Ünvan: Kobuleti şəhəri, Rustaveli N154.

- "İnformasiya Texnologiyaları Akademiyası",

Ünvan: Tbilisi şəhəri, Quram Pançikidze N3.

- Gürcüstan Texniki Universiteti,

Ünvan: Tbilisi şəhəri, Kostava N68 (I korpus).

***Səhifəni hazırladı: Aynurə ƏLİYEVA***

# QƏDDARLIĞA YOLUXMUŞ KÖRPƏLƏR



"Çovdarlıqda uçurumdan qoruyan" adlı roman var. On altı yaşlı oğlan Amerika həyatının çətinliklərindən danışır. Əxlaq və qaydalardan sıxılmış oğlan ərköyün xarakterinə baxmayaraq, qəlbində gizli arzu ilə yaşayır. Çovdarlıqda dayanaraq, uşaqları təhlükələrdən qorumaq istəyi ilə.

Təhlükə deyərkən, çoxumuz cismə vurulan zədələrin ola biləcəyini gözümüzün önünə gətiririk. Bu gün cəmiyyət mənəvi təhlükələrin hardan, necə gəldiyinə diqqət edirmi?

İradə bu gün həmişəki kimi məktəbə gedir. Anası tatar olduğu üçün qızına da qıyıqgözlülük irsən keçib. İkinci sinif şagirdini məktəbdə uşaqların çoxu döyür. Qız müdafiəsiz və hamı tərəfindən təklənir. Şagirdlər ona deyirlər ki, sən çinlisən və virusu sən gətirmisən.

Təsəvvür edirsiniz, səkkiz yaşlı uşaqların ruhundakı qəddarlığı?

Ailədə valideynlərin qaba rəftarının canlı göstəricisi cəmiyyətə göndərdikləri övladlarıdır. Döymək, təhqir, kütlə şəklində hücum uşağın gözündə adidir. Bir dəfə bir uşağa sual verdim:

– Hamı bir nəfəri döyəndə, sən çoxluğun tərəfində olma. Müdafiəsizi qoru. Bunu edərsən?

– Atam kimi olmaq istəyirəm, hamını döyür, qışqırır. Bütün məhəllə ondan qorxur.

Süni hakimiyyət, güc yaratmaq uşaq psixologiyasına zədəsini artıq vurmuşdur. O düşünmürdü, özünü köməksizin yerinə qoymurdu. Bu birinci səbəb – ailədən qaynaqlanmaqdı.

İkinci isə, nəzarət etmədiyimiz sahə var. Şiddət aşılayan cizgi filmləri. Araşdırmalar göstərir ki, on səkkiz aylıqdan uşaqda televiziyaya maraq yaranır. İki yaş yarımdan sonra isə uşaqlar cizgi filmlərini izləmək istəyirlər. Çox cizgi filmi izləyən uşaq, yaşıdlarına nisbətən üçqat aqressiv olur.

"Maşa və ayı" cizgi filminə saatlarla baxan uşağın valideyni üçün əsl toy-bayramdır. Sakitdir, oturur, baxır, mən də öz dünyamdayam düşünən valideyn sabah itaətsiz , hiyləgər, vicdani əzab çəkməkdən uzaq olan övladı ilə çətinlik yaşayanda, bunun səbəbi onun üçün qaranlıq qalacaq. Çünki cizgi filminə baxan uşaq Maşanı yamsılayır.

"Bədheybət Hay" cizgi filmi uşaqların dil lüğətini, "Süngər Bob kvadrat" isə eqoistliyi, böyüklərlə hörmətsiz rəftarı təbliğ edir və bu, şüura gizli olaraq ötürülür.

Qəddarlığın üçüncü səbəbi uşaqların, yeniyetmələrin vaxtın çoxunu yalnızlıqda keçirmələridir. Valideyni ilə açıq müzakirələrin, fikir mübadiləsinin olmamasıdır. Daimi olaraq vuran, dağıdan qəhrəmanların olduğu filmləri izləməkdir.

Dördüncü səbəb, ürəyində, şüuraltında gizlətdikləri acıq, heyifçıxma, qisasçılıq, kinlilik duyğularıdır. Zaman keçdikcə, duyğu halından çıxıb, hərəkətli aqressiyaya çevrilir.

Qadınların inkişafından nə qədər çox danışsaq da, qəbul etməliyik ki, döyülən, saçları kəsilən, maddiyyatla qorxudulan, süni asılılıq yaradaraq manipulə edilən qadın anadır və bətnində körpə gəzdirir. Anaya edilən şiddət hamiləlik və süd vermək dövründə dolayısı ilə uşağa edilir. Bir çox xəstəliklər, məsələn, allergik rinit bu səbəbdən yaranır. Daim ağlağan, səbəbsiz özünəməxsus əsəbilik keçirən uşaq gələcəkdə ətrafına acımasız olur. Bu, beşinci səbəbdir.

"O uçurum ki, sən ona doğru gedirsən, çox qorxulu və dəhşətlidir. Ora düşən adam heç vaxt gedib onun dibinə çatmır. Ömrü boyu üzüaşağı yuvarlanır. O adamlar ki, içində yaşadıqları adi mühitdə mümkünsüz bir şey axtarmağa başlayırlar, onların aqibəti bu cür olur".

Və mən bu uçurumdan uşaqları qorumaq istəyirəm. Uçurumun başqa adı qəddarlıq, amansızlıq, halına acımamaq, empati duyğusunun olmaması, köməksizə əl tutmamaq adlandırıla bilər.

Uşaqlar ata-analarından çox zamanlarına bənzəyirlər, dahilər belə deyir.

Hər bir halda, qarşısını sonra almaq gec ola bilər. Sağlam ruhu olan insan yetişdirmək, yüzlərlə İradə kimi uşaqların mənəvi terrora tuş gəlməməsi üçün səbəblər və nəticələri dərindən öyrənməliyik.

***Könül NURİYEVA***
**Yazıçı**
**Bakı, Azərbaycan**

## KORONAVİRUSUN KÖLGƏSİNDƏ QALAN İQTİDAR-MÜXALİFƏT RAZILAŞMASI



Sahim MUSTAFAOĞLU
sahib1975.sm@gmail.com

Hazırda bəşəriyyət qlobal problemə çevrilmiş qorxunc yoluxucu xəstəlik olan koronavirus ilə üz-üzə qalıb. Hətta məsələ o yerə çatıb ki, tibbi texnologiya və farmakologiyanın müasir nailiyyətləri bu virus qarşısında acizdir. Hər gün keçdikcə koronavirus öz yoluxma sərhədlərini genişləndirməkdədir. Artıq adı gedən xəstəlikdən ölənlərin sayı minlərlə ölçülür. Təəssüf ki, tibb mütəxəssisləri ən yaxın zamanda koronavirusla mübarizədə nikbin heç nə söyləmirlər.

Dünya ictimaiyyətinin əsas diqqəti koronavirusa köklədiyindən dünyada və ölkədə cərəyan edən mühim hadisələr arxa plana keçib. Odur ki, səhhətimizin qayğısına qalmaq şərti ilə Gürcüstanın siyasi həyatında baş vermiş ən mühim məsələyə də köklənmək olar.

Məlumdur ki, cari ilin payızında Gürcüstan parlamentinə növbəti seçkilər keçiriləcəkdir. Lakin seçkilərin hansı seçki sistemi ilə keçirilməsi barədə hazırki iqtidar və müxalifət arasında uçurum qədər fikir ayrılığı mövcud idi. Keçən ilin iyununda ölkədə yaşanan siyasi böhranı neytrallaşdırmaq üçün "Gürcü Arzusu-Demokratik Gürcüstan" siyasi birliyinin lideri B.İvanişvili parlament seçkilərinin tam proporsional sistem və "sıfır" baryer üzrə keçiriləcəyi haqqında anons versə də, noyabr ayında onun bu təşəbbüsünü parlament dəstəkləmədi. Hakimiyyət və müxalifət arasında siyasi böhranın daha da dərinləşməməsi üçün ABŞ və Avropa Birliyi siyasi təsisatları Gürcüstan hökumətini güzəştə getməyi, müxalifəti isə dialoqa dəvət edərək konsensusun əldə olunmasına dəvət etdi. Üstəlik, okeanın o tayından Tbilisinin ünvanına tənqidi mesajlar da gəlirdi. Nəhayət Vaşinqtonun vasitəçiliyi ilə ABŞ-ın ölkəmizdəki səfirliyində iqtidar və müxalifət yeni seçki sistemi modeli üzrə razılığa gəldi. Gürcüstan parlamentinin 150 yerlik kreslosunun sahibləri 120-si proporsional, 30-u isə majoritar qaydada formalaşacaq. Həmçinin "parlament partiyası" statusu əldə etmək üçün seçkilərdə 1% səs toplamaq kifayət edəcəkdir. İqtidar və müxalifət arasında imzalanmış yekun memorandumda diqqət çəkən məqamlardan biri də yeni seçiləcək parlament tərəfindən yeni hökumətin formalaşması məsələsi idi. Belə ki, bir siyasi partiyanın təkbaşına yeni hökuməti formalaşdırması üçün seçkilərdə ən azı 40% səs toplaması tələb olunacaq. Birmandatlı seçki dairələrinin seçicilər üzrə sərhədlərinin dəqiqləşməsi sırf texniki məsələdir və bu barədə Mərkəzi Seçki Komissiyası yekun qərarını yaxın zamanda verəcəkdir. Seçki sistemində aparılan islahatlardan sonra yaxın perspektivdə aktual görünməsə də, gələcəkdə koalisiya hökumətlərin yaranmasına da zəmin yaradacaqdır.

Parlament seçkilərində iqtidar hakimiyyətin cilovunu əldən verməmək üçün bütün resursları səfərbər edəcəkdir. Son zamanlar "Gürcü Arzusu-Demokratik Gürcüstan" siyasi birliyinin sıralarından ayrılan parlament üzvləri yenidən vahid koalisiyada birləşəcəkləri də istisna edilmir. Demokratik ölkələrdə bir siyasi qüvvənin ard-arda bir neçə seçki dönəmi ərzində iqtidarda qalması mexanizminin sadə düsturu vardır. İqtidarın hakimiyyətdə olduğu zaman müddətində ölkə və vətəndaşları qarşısında əlahiddə xidmətlərinə güvənməlidir.

Digər tərəfdən, müxalifət partiyalarının əksəriyyətinin birmandatlı seçki dairələrində razılaşma əsasında vahid namizəd irəli sürəcəyi gözlənilir. Ona görə də, iqtidara gəlmək üçün əksər müxalifyönümlü qüvvələrin bir cəbhədə mübarizə aparacağını söyləmək olar. Hakimiyyətə gəlmək yolunda müxalifət seçicilərin qarşısına populist və məsuliyyətsiz şüarlarla deyil, həyata keçiriləcəyi real görünən və bütün sahələri əhatə edəcək konkret platforma ilə çıxmalıdır.

Payız seçkilərinin iqtidar və müxalifət partiyaları arasında gərgin mübarizə şəraitində keçəcəyini söyləmək üçün uzaqgörənliyə ehtiyac yoxdur. Əsas məsələ Baş nazir Qaxarianın dili ilə desək, ölkədə demokratiyanın daha da möhkəmlənməsi, siyasi mühitin stabilləşməsi, siyasi qüvvələr arasında qütbləşmənin dərinləşməməsi, dövlətimizin iqtisadi inkişafıdır.



## YAZ ALLERGİYASI

İsə Xəmmədov
khamedovisa0@gmail.com

Yaz fəslində bir çox mövsümi xəstəliklər – burun axması, qaşınma, göz yaşarması və dəri qıcıqlanmaları baş qaldırır.

Yaz aylarında ağacların çiçək açması, tozlanmanın başlanması və havada uçan toz hissəcikləri ilə əlaqədar allergik xəstəliklər yaranır və ya kəskinləşir. Buna görə də, çox zaman yaza "xəstəliklər fəsli" də deyilir. Allergik rinit, allergik faringit, dəri allergiyaları, allergik bronxit, xroniki mədə-bağırsaq xəstəlikləri yaz fəslində daha da ağırlaşır.

Yazda mövsümi xəstəliklər deyəndə əsasən allergik xəstəliklər nəzərdə tutulur: "Başqa fəsillərdə xəstələrə müqaviməti artırmaq üçün açıq havada çox gəzmək məsləhət görülür. Amma yazda allergiyası olan insanlara günün birinci yarısı, xüsusən də saat 10-11 arası açıq havada gəzmək məsləhət görülmür. Əgər allergiyası olan adam günün bu saatlarında açıq havaya çıxmaq məcburiyyətindədirsə, maskadan istifadə etməlidir. Çünki səhər saatlarında tozlanma daha çox olur".

Evlərin havalandırılmasının da günorta, axşam saatlarında edilməsi daha məqsədəuyğundur. Səhər saat 5-dən 11-ə qədər avtomobillərin pəncərəsini də açmaq məsləhət görülmür. Yaz fəslində gözləri də qorumaq lazımdır. Çünki yazda allergik konyuktivit meydana çıxa bilər: "Günəş eynəklərindən istifadə edin. Evə gəldikdən sonra tez bir zamanda geyiminizi dəyişib duş almaq, saçlarınızı yumaq məsləhətdir. Bu zaman saçlarınızda olan toz hissəcikləri də təmizlənmiş olacaq. Evdə heyvan saxlayanlar bu dövrdə çalışmalıdırlar ki, heyvanlar yataq otağına girməsinlər".

Kəskin qoxular, parfüm qoxusu olan yerlərdə olmaqdan çəkinmək lazımdır. Ümumiyyətlə, insanlar qəlyan çəkməməyə çalışmalıdırlar. Sitrus meyvələrdən uzaq olmalı, digər meyvələrə üstünlük verməlidirlər. Çərəzlərdən uzaq olmaq lazımdır. Çünki allergik xəstəlikləri qıcıqlandırır".

Allergik rinit (xəstə qrip deyil, burnu axır, özünü qrip olmuş kimi hiss edir), allergik konyuktivit (gözlərin yaşarması) allergik farengit (boğazda qıcıqlanma), allergik bronxit, bronxial astma, dəri qızartıları yaz fəslinin allergik xəstəlikləridir. Allergiyası olanlar bol maye qəbul etməlidirlər. "Bu dövrdə uşaqlar və hamilə xanımlar xüsusi diqqətli olmalıdır. Bəzən heç bir vaxt allergiya görülməyən uşaqda allergik xəstəliklər meydana gələ bilər. Diqqətli olmaq lazımdır ki, xəstəlik xroniki hal almasın. Allergik xəstəliklərə genetik meyilliliyi olan insanlara həkim məsləhəti ilə müəyyən preparatlar verilir".

Yaz fəslində virus infeksiyalarının törətdiyi xəstəlikləri də unutmaq olmaz. Ümumiyyətlə, bütün mövsüm dəyişiklikləri zamanı havanın dəyişməsi, insanların qalın geyimlərdən nazik geyimlərə keçməsi virus infeksiyalarının da artmasına səbəb olur. Qripin və yaxud paraqripin törətdiyi aşağı və yaxud yuxarı tənəffüs yollarının kəskin iltihablı xəstəlikləri yaz fəslində, xüsusən mart ayında rast gəlinir. Bu xəstəliklər zamanı antibiotiklər məsləhət görülmür, çünki antibiotiklər bədənin müqavimətini azaldır. Ancaq simptomatik müalicə aparılmalı, hərarət varsa ona qarşı dərmanlar qəbul edilməli və eyni zamanda bol maye qəbul edilməlidir. Mövsümə uyğun olaraq tərkibi vitamin C ilə zəngin olan meyvələrə üstünlük verilməlidir. Alma, kivi, limon, mandarin, portağal yeyilməsi vacibdir. Yuxu və iş arasında tarazlıq yaradılmalı, insan bədənini çox yormamalıdır.

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## NAĞLİ (NAĞIL)

Bizim aşıqların məişətinə bütöv bir kitab həsr etdim ("Sayat-Nova"). Bu dəfə yalnız bir "Nağli" adlanan tamaşasayağı adət üzərində dayanacağam. "Nağli" özünün tərbiyəvi əhəmiyyəti ilə digər aşıq adətlərindən həddindən artıq fərqlənir. Nağli səyyar teatr olaraq daha çox bayram günlərində yayılmışdır. Nağli nəql, nağıl deməkdir. Lakin nağıllardan başqa ("Xeyir və şər qəhrəmanının sərgüzəşti") çox hallarda bu teatr İncil mövzularına da toxunurdu. Aşıqlar bir hədisi götürüb əvvəlcə nəzmə çəkirdilər, sonra isə başqa-başqa səslər, ləhcələr seçirdilər və həqiqi misteriya alınırdı. Bu cür tamaşalar çöldə və ya meydanda göstərilirdi. Alış-veriş yeri səhnəni təşkil edirdi, aşıqlar isə artistləri; camaat yerə səpələnmişdir, müğənnilər hündür yerdə dururdular və onlar arasında belə bir dialoq baş verirdi:

– O nə idi ki, diri olanda arpa və saman yedi, öləndə ət yedi və qan içdi?

– Bu, eşşəyin çənəsi idi, Samson onunla min nəfəri vurub öldürdü.

– O hansı ağac idi, öncə budağı və yarpaqları yox idi? Sonra ətə-qana gəldi?

– Bu, Musa peyğəmbərin əsası idi, ağac olana kimi qol-budağı yox idi.

– O kim idi, on beş il ərzində hökmranlığı var idi, on altıncı ildə xəstə oldu, otuz ili tamam olanda öldü və yenə dirildi?

– O Ay idi.

– O kim idi, öz anasına yaxınlaşdı, anası dedi: "Mən bakirəyəm"?

– Bu Habilin bədəni idi, məzara qoyulanda torpaq dedi: Mən bakirəyəm.

Və ya yenə:

– O nədir ki, bu dünyada xatırlanmır?

– Birinci – qapağı olmayan dənizdir, ikinci – dirəyi olmayan səmadır, üçüncü – qılı olmayan insan əlinin içidir. *(Bu dialoqun tərcüməsini Z.Cicinadzeyə məxsus on yeddinci əsrin sonuna aid olan "Kalvajiani"dən (Gürcü xalq deyişmə janr əsəri – M.M.) götürmüşük (Bax. 1887-ci il nəşrinə). Son illərdə həddindən artıq yararsız hala salınmış redaksiya ilə nəşr olunan bu əsər aşağı təbəqə camaatı arasında elə yayılmışdır ki, 1901-ci il nəşri "qırxıncı nəşr" yazılıb. Bizim "Kalvajiani" məğzi və quruluşu ilə Qotsinin məşhur pyesi "Turandot"a qohumluğu çatır ki, buradan sonra Molyer də onun formasını dəyişdi: Turandot "gözəl Çin şahzadəsi" ("Китайская принцесса")).*

Bu tamaşasayağı sual-cavab sona yetəndə hamı qalib gələn aşığa himn qoşurdu.

Ovasiya və bağırtı qopurdu.

Əgər bu cür mövzulara aşıqlar mistik sirrin bir az nəzərə çarpan fərqliliyini verirdilərsə və yalnız kilsə bayramları üçün yararlı idisə, əvəzində, onlar şəhərdə alış-veriş yerində tamaşalar göstərməli olanda, "Nağıl"ın məğzi əlüstü dəyişirdi. Məsələn:



**Birinci aşıq:**
– Göydən yerə nə asılıb?
– Hamıdan asan kim rahatlanır?
– Əldən ələ nə dolaşır?

**İkinci aşıq:**
– Göydən yerə yağış asılıb.
– Hamıdan asanca uşaq rahatlanır.
– Əldən ələ pul dolaşır.

**Birinci aşıq:**
– Günəş doğanda nə yoxa çəkilir?
– Suda nə islanmır?
– Torpaqda nə çirklənmir?
– Hansı quş öz yuvasında tənhadır?

**İkinci aşıq:**
– Günəş çıxanda ulduzlar yoxa çəkilir.
– İşıq suda islanmır.
– Torpaqda saf daş çirklənmir.
– Öz yuvasında tək-tənha oturan quş ürəkdir.

Göründüyü kimi, bu cür pyeslərin "traktovkası" yalnız deyişmə dialoqları ilə məhdudlaşırdı. Bu beyni işlətmək məqamları intriqalar və gözlənilməz hallarla dolu idi.

Düzgün və vaxtında verilən cavablar camaat arasında böyük heyranlığa səbəb olurdu.

Hər bir vətəndaş yer tutmaq üçün meydana lap tezcə gedirdi və insanpərvərlik barədə, yaxşılıq-pislik barədə, halallıq barədə, birlik-məhəbbət barədə və sair barədə fikirləri "müftə" dinləyirdi.

Əgər yüksək təbəqəli ictimaiyyət fərdi evlərdə tamaşalar göstərirdisə, bizim aşıqlar estrada sənətini inkişaf etdirmək üçün meydanlarda çıxışların formalarına müraciət edirdilər. Açıq səma altında pulsuz olaraq təşkil edilən bu cür kütləvi tamaşa rahibin kilsə bayramlarında dumanlı moizəsinə nisbətən camaat üçün əlçatan və aydın idi.

Güman ki, bu ona səbəb idi ki, ruhaniyyət "Nağıla" qarşı tez-tez hücuma keçirdi, deyirdilər ki, camaat ibadət mərasimində iştirak etmir və bu əyləncə ilə pozulurlar. Buna baxmayaraq "Nağılın" onlarca il tarixi vardır və Tiflisin sahil məhəllələrində "xalq tamaşaları" sərgilənəndə səksəninci illərə qayıtdı.

***Gürcü dilindən tərcümə: Mirzə MƏMMƏDOĞLU***

## QARDABANİ MERİ BİRİNCİ MÜAVİNİNİ TƏQDİM EDİB



Qardabani bələdiyyəsinin icra başçısı Ramaz Budağaşvili Gürcüstan Parlamentinin majoritar deputatlarına, sakrebulo sədrinə, meriyanın xidmət rəhbərlərinə və merin kəndlərdəki nümayəndələrinə birinci müavini Giorgi Şincikaşvilini təqdim edib. Qardabani bələdiyyəsinin rəsmi veb-səhifəsinin yaydığı məlumata görə, R.Budağaşvili Giorgi Şincikaşvilinin böyük iş təcrübəsinə malik olduğunu deyib. Bildirib ki, G.Şincikaşvili illər ərzində Qardabani bələdiyyəsinin nəzarət xidmətinin rəhbəri olaraq çalışıb, həmçinin sakrebulonun İdman və gənclər komissiyasının sədri və "Qardabani bələdiyyəsinin idman mərkəzi"nin direktoru vəzifəsini tutub.

Qeyd edək ki, Giorgi Şincikaşvilidən əvvəl merin birinci müavini Davit Canturia idi.

## NƏRİMAN NƏRİMANOVUN HEYKƏLİ BƏRPA EDİLİR



Marneuli rayonunun mərkəzində yerləşən Azərbaycanın görkəmli dövlət xadimi və yazıçısı Nəriman Nərimanovun heykəlinin bərpasına başlanılıb.

Heykəlin postamentindəki köhnəlmiş mərmər lövhələr yeniləri ilə əvəzlənib.

Abidənin bərpa işlərini Marneuli meriyası həyata keçirir. Bu il ərzində heykəlin yerləşdiyi parkın da abadlaşdırılması nəzərdə tutulub.

Xatırladaq ki, 1980-ci illərin əvvəllərində ucaldılan heykəl ötən ilin sentyabrından qəzalı vəziyyətdə idi.

Bu il Nəriman Nərimanovun anadan olmasının 150 illiyi tamam olur. 1870-ci ilin aprelin 14-də Tbilisidə anadan olan böyük yazıçı bir neçə il Marneuli rayonunun Qızılhacılı kəndində müəllim və həkim kimi fəaliyyət göstərib.

## QASIMLI İCTİMAİ MƏKTƏBİ ÜÇÜN YENİ BİNA İNŞA OLUNACAQ



Marneuli rayonunun Qasımlı kənd ictimai məktəbi üçün yeni bina inşa olunacaq.

Müasir standartlara uyğun tam orta məktəb binası 2021-ci ilin sonunda hazır olacaq.

Azərbaycandilli təhsil müəssisəsi 450 şagird üçün nəzərdə tutulub. Bina 24 sinif, dörd laboratoriya otağı, kompüterlərlə təchiz olunmuş müasir kitabxana, akt zalı, daxili idman zalı və həyətdə əlavə stadiondan ibarət olacaq.

Qeyd edək ki, Marneulidə bu il 13 məktəbdə təmir-bərpa işlərinin aparılması nəzərdə tutulub.

## MARNEULİNİN MƏRKƏZİ STADİONU BƏRPA EDİLƏCƏK

Marneuli rayonunun mərkəzi stadionu bərpa ediləcək. Bununla bağlı Marneuli bələdiyyəsi Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyinin Bələdiyyələrin İnkişafı Fonduna layihə təqdim edib.

Layihəyə əsasən, 1500 tamaşaçı üçün nəzərdə tutulan stadion FİFA-nın ikinci kateqoriyasının standartlarına cavab verəcək.

Bərpa işləri çərçivəsində ikimərtəbəli binanın tikintisi də planlaşdırılır. Birinci mərtəbədə geyinib-soyunma otaqları, ikinci mərtəbədə isə kabinet və inzibati ofis yerləşəcək.

Mərkəzi stadion avtodayanacaqlar və digər infrastruktur obyektləri ilə təchiz olunacaq və fiziki məhdud şəxslər üçün də uyğunlaşdırılacaq. Layihə-smeta sənədinə əsasən, bərpa işlərinin ümumi dəyəri 7,5 milyon lari təşkil edir.

## QARDABANİDƏ TƏCİLİ TİBBİ YARDIM MƏRKƏZİNİN YENİ BİNASININ AÇILIŞI OLUB

Qardabanidə təcili tibbi yardım xidmətinə yeni bina verilib. Tibbi heyət artıq yeni iş mühitində fəaliyyətinə davam edir.



Fövqəladə Halların İdarə olunması və Təxirəsalınmaz Yardım Mərkəzinin direktoru Avtandil Talakvadze, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Qardabaninin majoritar deputatı Savalan Mirzəyev və Qardabani bələdiyyəsinin içra başçısı Ramaz Budağaşvili yeni binanın açılışı mərasimində iştirak edib.

Beynəlxalq standartlara cavab verən bina təcili tibbi yardım spesifikasını nəzərə alaraq layihələşdirilib və tam müasir inventarla təchiz edilib. Heyət üçün iş və istirahətlə bağlı lazımı şərait yaradılıb.

Layihəni Regional İnkişaf və İnfrastruktur Nazirliyi yerli özünüidarəetmə orqanı ilə birgə həyata keçirib. Layihə ölkədə təxirəsalınmaz yardım xidmətinin təkmilləşdirilməsi məqsədi daşıyır.

## MARNEULİDƏ GENİŞMİQYASLI İSTİRAHƏT MƏKANININ AÇILIŞI OLUB

Marneuli bələdiyyəsində mərkəzi və yerli hakimiyyət nümayəndələrinin iştirakı ilə "Yenə də böyüyəcəklər" abidəsinin ətraf ərazisində müasir dizaynlı istirahət məkanının açılışı olub.



Şəhərin mərkəzi parkının açılış tədbirində yerlilərlə birgə dəvət olunmuş qonaqlar və mədəniyyət sahəsinin nümayəndələri də iştirak ediblər.

Layihə çərçivəsində abidə parkın dominant hissəsi olub. Uşaq, istirahət, yaradıcılıq və bayram zonaları, amfiteatr və parkinq sahələri qurulub. 1 094 328 lari dəyərində layihə Regional İnkişaf və İnfrastruktur Nazirliyi və yerli büdcənin birgə maliyyəsi ilə həyata keçirilib.

Qeyd etmək lazımdır ki, "Yenə də böyüyəcəklər" abidəsinə mədəni irs statusu verilib və abidənin müəllifi tanınmış heykəltəraş Merab Berdzenişvilidir.

## SARALLAR KƏNDİNDƏ YENİ MƏKTƏB BİNASI TİKİLİR

Bolnisi rayonunun Zvareti (Sarallar) kəndində yeni məktəb binası inşa olunur.



Bu barədə Bolnisinin majoritar deputatı Qoqita Meşveliani məlumat yayıb.

Tikinti prosesi ilə tanış olan deputatın sözlərinə görə, mövcud məktəb binası qəzalı olduğundan yerli əhali illərdir yeni binanın tikilməsini tələb edirdi.

Q.Meşveliani bildirib ki, inşaat işlərinin 65%-i artıq başa çatdırılıb.

Natamam orta məktəb 60 şagird üçün nəzərdə tutulub. Bina müasir standartlara cavab verəcək və həyətində mini stadion da yaradılacaq.

Təhsil müəssisəsinin 2020-ci ilin sentyabrında istifadəyə verilməsi nəzərdə tutulub.

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MART
2020-Cİ İL
№005 (109)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## 2019-CU İLDƏ BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN HƏCMİ 0,2% ARTIB – SON 6 İL ƏRZİNDƏ BU ƏN AŞAĞI GÖSTƏRİCİDİR




Gürcüstanda həyata keçirilmiş birbaşa xarici investisiyaların həcmi 2019-cu ildə 1 267.7 milyon ABŞ dolları təşkil edib. Bu isə 2018-ci ilin müvafiq göstəriciləri ilə müqayisədə 0,2 faiz çoxdur.

Milli Statistika Xidmətinin məlumatına əsasən, üç ən böyük investor ölkənin ümumi birbaşa xarici investisiyadakı töhfəsi 2019-cu ilin göstəriciləri ilə 48,7 faiz təşkil edib. Birinci yerdə 19,5 faizlə Birləşmiş Krallıq, ikinci yerdə 18,7 faizlə Türkiyə, üçüncü yerdə isə 10,5 faizlə İrlandiya durur.

Üç böyük sektorun töhfəsi (həyata keçirilmiş birbaşa xarici investisiyalara görə) isə 2019-cu ildə 48,4 faiz təşkil edib. Ən böyük həcmdə birbaşa xarici investisiya maliyyə sektorunda həyata keçirilib və 261.8 milyon ABŞ dolları təşkil edib. Bu isə ümumi birbaşa xarici investisiyaların 20,6 faizidir. İkinci yerdə 193.9 milyon ABŞ dolları ilə energetika sahəsi, üçüncü yerdə isə 157.5 milyon ABŞ dolları ilə mehmanxanalar və restoranlar sektoru durur.

"Məlumata görə, Gürcüstanda həyata keçirilmiş birbaşa xarici investisiyaların həcmi 2019-cu ilin 4-cü rübündə 347.0 milyon ABŞ dolları təşkil edib. Bu isə 2018-ci ilin 4-cü rübündə təsdiqlənən göstəricilərdən iki dəfə çoxdur.

2019-cu ilin 4-cü rübündə ən böyük birbaşa investor ölkələr arasında birinci yeri 36,1 faizlə Birləşmiş Krallıq, ikinci yeri 22,2 faizlə Türkiyə, üçüncü yeri isə 13,9 faizlə Niderland tutur.

Üç ən böyük sektorun töhfəsi (həyata keçirilmiş birbaşa xarici investisiyalara görə) 2019-cu ilin 4-cü rübündə 66,1 faiz təşkil edib. Ən çox birbaşa xarici investisiya maliyyə sektorunda həyata keçirilib və 138.1 milyon ABŞ dollarına çatıb. Bu isə ümumi birbaşa xarici investisiyaların 39,8 faizidir. İkinci yerdə 49.6 milyon ABŞ dolları ilə tikinti sektoru, üçüncü yerdə isə 41.6 milyon ABŞ dolları ilə daşınmaz əmlak sektorudur" - Statistika Xidmətinin məlumatında deyilir.

Mənbə: bpn.ge

## GÜRCÜSTANDAN MEYVƏ VƏ TƏRƏVƏZİN İXRACI ARTIB



Cari ilin yanvar ayında ötən ilin analoji dövrü ilə müqayisədə Gürcüstandan meyvə ixracı 39,4%, tərəvəz ixracı isə 11% artıb. Milli Statistika Xidmətinin məlumatına əsasən, 2020-ci ilin yanvar ayında meyvə və qoz ixracından əldə olunan gəlir 7,138 milyon ABŞ dolları təşkil edib. Belə ki, meyvə və qozun həcmi ümumi ixrac məhsulları arasında 2,7% idi.

İxrac qrupunda aparıcı mövqeni tutub: mandarin – 2,928 milyon ABŞ dolları, fındıq – 2,725 milyon ABŞ dolları, banan (reeksport) – 340,4 min ABŞ dolları, portağal – 221,7 min ABŞ dolları, alma – 152,7 min ABŞ dolları.

2019-cu ilin yanvar ayında meyvə və qoz ixracından gələn gəlir 5,120 milyon ABŞ dolları təşkil edib. Ümumi ixrac məhsulları arasında isə meyvə və qozun həcmi 2,1% təşkil edib.

2019-cu ilin yanvar ayında aparıcı mövqedə idi: fındıq – 2,075 milyon ABŞ dolları, mandarin – 1,760 milyon ABŞ dolları, püstə – 369,6 min ABŞ dolları, alma – 339,3 min ABŞ dolları, banan (reeksport) – 141,9 min ABŞ dolları, qoz – 137,6 min ABŞ dolları.

2020-ci ilin yanvar ayında tərəvəz ixracından əldə olunan gəlir 1,260 milyon ABŞ dolları təşkil edib. Belə ki, ümumi ixrac məhsulları arasında tərəvəzin töhfəsi 0,5% idi. Qrupda aparıcı mövqedə olanlar: xiyar – 136,6 min ABŞ dolları, göbələk – 122,5 min ABŞ dolları və badımcan – 112,3 min ABŞ dolları.

2019-cu ilin analoji dövrü ilə müqayisədə isə tərəvəz ixracından əldə olunan gəlir 1,135 milyon ABŞ dolları təşkil edib. Ümumi ixrac məhsulları arasında tərəvəzin töhfəsi 0,5% idi. Qrupda aparıcı mövqeni tuturdu: xiyar – 324,1 min ABŞ dolları, pomidor – 252,4 min ABŞ dolları və kartof – 107,5 min ABŞ dolları.

Mənbə: bpn.ge

## "GÜRCÜSTAN" QƏZETİNƏ YENİ BAŞ REDAKTOR TƏYİN OLUNUB



Rustavi şəhəri Azərbaycanlıları Mədəniyyət Mərkəzinin rəhbəri Xaləddin Yolçuyev "Gürcüstan" qəzetinə yeni baş redaktor təyin olunub. O, vəzifəsinə yaxın günlərdə rəsmən təsdiq olunacaq.

X.Yolçuyev 1951-ci ildə Qardabani rayonunun Candar kəndində anadan olub. 1972-ci ildə Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunu bitirib. Tikinti sahəsində bir çox məsul vəzifələrdə çalışıb.

Qeyd edək ki, nəşrin keçmiş baş redaktoru, Gürcüstanın əməkdar jurnalisti İslam Əliyev ötən ilin dekabrın 21-də 72 yaşında vəfat edib. "Gürcüstan" qəzeti Tbilisidə 1921-ci ildən etibarən nəşr olunur. 2021-ci ildə qəzetin 100 illiyi tamam olacaq.

## GÜRCÜSTANDA TİBBİ MASKA İSTEHSAL EDİLƏCƏK



Gürcüstanın Səhiyyə Nazirliyindən yerli "IPN" agentliyinə verilən məlumata əsasən, Gürcüstanda iki şirkət tibbi maskaların istehsalına maraq göstərib.

Hər iki şirkətə müvafiq icazə verilib və onlar artıq istehsal avadanlığının təchizatı prosesinə başlayıblar.

Səhiyyə Nazirliyi şirkətlərə tibbi maska istehsalına mümkün olduğu qədər tez başlamağı tapşırıb.

Qeyd edək ki, koronavirusla bağlı olaraq ölkədə ciddi tibbi maska qıtlığı yaşanır.

## "YÜKSƏK DAĞLIQ REGİONLARIN İNKİŞAFI HAQQINDA" QANUNA DƏYİŞİKLİK EDİLİR



Gürcüstanın işğal ərazisi xətti yaxınlığında yerləşən kəndlərin əhalisinin iqtisadi vəziyyətinin yaxşılaşdırılması və yüksək dağlıq bələdiyyələrdə qeyri-bərabərliyin aradan qaldırılması məqsədi ilə Gürcüstanın "Yüksək dağlıq regionların inkişafı haqqında" qanununa dəyişiklik daxil edilir.

58 kəndə yüksək dağlıq yaşayış məntəqəsi statusu, 25000-dən artıq insana isə yüksək dağlıq məntəqəsi sakini statusu və bununla bağlı güzəştlərdən yararlanmaq imkanı veriləcək.

Başqa meyarlardan kənar 800 metr və daha yüksəkdə, işğal əraziləri xəttinin ətrafında yerləşən 19 kəndə və Tianeti, Dmanisi, Aspindza və Duşeti kimi bələdiyyələrə daxil olan, 80%-dən çoxunun yüksək dağlıq məntəqəsi statusu olan 39 məntəqəyə status veriləcək. Belə inzibati mərkəzlərə isə 1000 metr yaxud daha yüksəkdə yerləşdiyi halda status veriləcək.

2000 və daha çox yüksəkdə yerləşən məntəqələrdə daimi yaşayan şəxs statusunun verilməsi meyarları da dəyişir. Bu statusu almaq üçün bu cür məntəqələrdə rəsmi olaraq 9 aylıq yaşamaq şərti əvəzinə 6 aylıq dövr yetərli olacaq.

Hazırda Gürcüstanda ölkənin 1737 məntəqəsinə yüksək dağlıq məntəqəsi statusu verilib və dağda daimi sakin statusu ilə sosial və vergi güzəştlərindən 250000-ə yaxın vətəndaş faydalanır.

Mənbə: guardian.ge

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.